# KİÇİK LEYTENANT MURADOV VÜSAL CƏSARƏT OĞLU



Kiçik leytenant Muradov Vüsal Cəsarət oğlu 19 may 1999-cu ildə Sumqayıt şəhərində anadan olmuşdur.

2014-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunmuş və 2017-ci ildə həmin liseyi bitirmişdir.

14.09.2017-ci ildə SHXÇDX-nin Sumqayıt şəhər şöbəsi tərəfindən hərbi xidmətə çağırılıb.

2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur.

2020-ci ilin sentyabr ayının sonunda Ermənistanın törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun əks hücum əməliyyatı zamanı Müdafiə Nazirinin müvafiq əmrinə əsasən ona kiçik leytenant hərbi rütbəsi verilərək cəbhə bölgəsinə göndərilmiş və hərbi hissənin kəşfiyyat bölüyünün kəşfiyyat taqımının komandiri vəzifəsinə təyin olunmuşdur.

Zabit kimi xidmət etdiyi qısa müddət ərzində Vətən Müharibəsində göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Vətən uğurunda", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

2020-ci ilin oktyabr ayında torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına **şəhid** olmuşdur.

Subay idi.